# *Qələmin səsi, Qəlbin nəğməsi*

## *Bəxtiyar Vahabzadə - 100*



**Bakı – 2025**

**(***Veblioqrafiya)*

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Əkbərova Aysel**

**Ünvan**: Bakı şəhəri, S.Vurğun küçəsi 88

**Əlaqə:** (+99412) 597-08-79, (+99412) 597-09-86

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

# Giriş

Azərbaycan ədəbiyyatının parlaq simalarından biri, xalqın dərdini, sevincini və milli ruhunu poeziyada əks etdirən qüdrətli söz ustası Bəxtiyar Vahabzadə 1925-ci il avqustun 16-da Şəki şəhərində anadan olmuşdur. Uşaqlıq illərindən etibarən ədəbiyyata böyük maraq göstərmiş və bu maraq onu Azərbaycan poeziyasının aparıcı simalarından birinə çevirmişdir. O, 1942-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş, müharibə səbəbindən təhsilinə bir müddət ara versə də, sonradan universiteti müvəffəqiyyətlə başa vurmuşdur. Təhsilini tamamladıqdan sonra uzun illər elmi və pedaqoji fəaliyyətlə məşğul olan Bəxtiyar Vahabzadə professor elmi dərəcəsinə qədər yüksəlmiş, Bakı Dövlət Universitetində dərs demişdir. Onun elmə və ədəbiyyata verdiyi töhfələr həm klassik Azərbaycan ədəbiyyatının tədqiqi, həm də yeni dövr poeziyasının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. 1990-cı illərdə müstəqil Azərbaycanın siyasi və ictimai həyatında da fəal iştirak edən Bəxtiyar Vahabzadə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Onun çıxışları və mövqeyi hər zaman millətin mənəvi dirçəlişinə xidmət etmişdir.

Bəxtiyar Vahabzadənin poeziyasının əsas mövzusu Vətən sevgisi, milli kimlik, azadlıq ideyaları, ana dili və mənəvi dəyərlər olmuşdur. Onun “Ana dili”, “Gülüstan”, “Vicdan”, “İkinci səs”, “Şəhidlər”, “Yağışdan sonra”, “Mən burdayam, İlahi!” və digər şeirləri Azərbaycan oxucusu tərəfindən böyük sevgi ilə qarşılanmışdır. Xüsusilə, "Gülüstan" poeması sovet senzurasının sərt dövründə yazılmasına baxmayaraq, milli birlik ideyasını poetik formada ifadə etməklə cəsarətli bir ədəbi nümunəyə çevrilmişdir. Bəxtiyar Vahabzadə həm də dramaturq kimi fəaliyyət göstərmiş, "Vicdan", "İkinci səs" və digər əsərləri Azərbaycan teatr səhnəsində uğurla tamaşaya qoyulmuşdur. Onun yaradıcılığı təkcə ədəbi deyil, həm də ictimai və siyasi mahiyyət daşıyır – o, daim xalqının sözünü deməyə çalışan, ictimai problemlərə biganə qalmayan ziyalı kimi yadda qalmışdır. Onun bədii irsi, milli ideallara sədaqəti və dərin fəlsəfi dünyagörüşü ilə seçilən əsərləri zamanın sınağından çıxaraq bu gün də öz aktuallığını qorumaqdadır. Bəxtiyar Vahabzadə təkcə bir şair deyil – o, həm də vətəndaş mövqeyi ilə seçilən ziyalı, ictimai xadim, pedaqoq və millətin ruhunu ifadə edən nadir sənətkar idi.

2009-cu il fevralın 13-də böyük şair və mütəfəkkir dünyasını dəyişsə də, onun zəngin ədəbi irsi bu gün də yaşayır, oxunur və yeni nəsillər üçün bir örnəyə çevrilir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Bəxtiyar Vahabzadənin 100 illiyi münasibətilə şair haqqında olan çap məhsullarının tammətnli biblioqrafik siyahısı, şair haqqında tanınmış şəxsiyyətlərin söylədiyi fikirlər, eləcə də foto və videoqalereyanın yer aldığı veblioqrafiya  hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur.

Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikir xəzinəsinə qiymətli töhfələr bəxş etmiş söz ustası Bəxtiyar Vahabzadənin 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 21 fevral 2025-ci il*

## Bəxtiyar Vahabzadənin hikmətli kəlamları

*Qılınc bu gün varsa, sabah pas tutar,*
*Sözünsə qılıncı həmişə parlar.*

*Əgər ana ürəyinə toxunsan,*
*Quş yuvası dağıdırsan elə bil.*

*Nəsənsə, özün ol, Kökündən yapış!*
*Dünənə arxalan, Bu gündən yapış!*

*Mən tək olan zaman fikirlərimin*
*Hər biri yanımda bir adam olur.*

*Nə qədər zirvəyə qalxıb ucalsan,*
*Sən qalxan zirvəyə enən deyiləm...*

*Əslimi, nəslimi tanıyıram mən,*
*Qarışıq deyiləm, özümdən hürkəm.*
*Sən kimsən, sən nəsən, özün bilərsən,*
*Mən ilk qaynağımdan türk oğlu türkəm!*

*Vətən borclu deyil, biz borcluyuq Vətənə.*

*Keçmişinə daş atanın gələcəyinə güllə atarlar.*

*Düzlük istəyənin ən əvvəl özü,*
*Əgər düz olmasa; vay o düzlüyə!*

*Hamıya bəllidir savab işlərim - Amma günahlarım tək mənə bəlli.*

*Yaşamaq yanmaqdır yanasan gərək,*
*Şam əgər yanmırsa, yaşamır demək.*

*Üstünün qaşıyla tanınar üzük.*

*Şairin sözü insan qüvvəsinin sərkərdəsidir.*

*Od vurmasa qabda su daşa bilməz,*
*Quş da tək qanadla dağ aşa bilməz.*

*Kösöyün ikisi çöldə də yanar,*
*Biri ocaqda da alışa bilməz.*

*Qorxuram dünyada bir zaman gələ,*
*İnsanlar yaşaya, insanlıq ölə*

*Baxışdan söz götür, söz anla sözdən.*

*Bədii əsərin ömrü onun xalq tərəfindən bəyənilməsindən asılıdır.*

*Cavanın sərvəti - hələ öndədir,*
*Qocanın nəyi var - keçmişindədir.*

*Göydə buludlar da qoşalaşmasa,*
*Nə ildırım çaxar, nə yağış yağar.*

*Həmişə öyrədib, öyrədir zaman,*
*Kökdən gəlməyəni yox etmək asan!*

*Həyat səni güldürəndə gülmüsən,*
*Hünərin var, ağladanda gül görüm.*

*Kolların dibində tək bitdiyindən,*
*Boynu bükük olur bənövşənin də.*

*Şairi olmayan bir xalq – kütlədir,*
*Amalsız bir kütlə xalq ola bilməz.*

*Qaranlıq – işıqçün yananın payı*
*İşıqsa - işıqçün yanmayanındır*

## Görkəmli şəxsiyyətlər Bəxtiyar Vahabzadə haqqında

Mən hələ Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirələridir. Belə bir insan o vaxtlar böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı. “Gülüstan” poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular.

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

Siz yaradıcılığını Vətənimizin azadlığı, müstəqilliyi və bütövlüyü uğrunda mübarizəyə həsr etmiş, milli şüurun yetişməsində mühüm rol oynamış və gənc nəslin milli-mənəvi dəyərlər sistemində tərbiyə olunması işinə böyük xidmətlər göstərmiş söz ustadlarımızdansınız. Poeziya sənətimizin ənənələrini zamanın sınaqlarından çıxaran və yaşadan bir şair kimi adınız ölkəmizdə daim ehtiramla çəkilir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının incisidir. Onun şeirləri xalqımızın qəlbində əbədi yaşayacaq.

**Məmməd Araz**

Bəxtiyar Vahabzadə böyük bir şair olmaqla yanaşı, həm də böyük bir insan idi. Onun əsərləri milli kimliyimizi, tariximizi və mədəniyyətimizi əks etdirir.

**Anar**

Bu gün Azərbaycanda ən çox oxunan şairlərdən biri, şübhəsiz, Bəxtiyar Vahabzadədir. Onun şöhrətinin sirri nədədir? Bu suala cavab vermək, görünür, həm də onun poetik ustalığının məziyyətlərini tapmağa çalışmaq deməkdir. Vahabzadə parlaq, son dərəcə bütöv, qeyri-adi şəxsiyyətdir. Həyatda şəxsiyyətdir. Poeziyada şəxsiyyətdir. Bəxtiyar, ən əvvəl, bir şair kimi ümumxalq şöhrəti qazanmışdır. Vahabzadə nə ilə məşğul olursa olsun, o, həmişə və hər işdə şair olaraq qalır.

**Çingiz Aytmatov**

Tarixdə əsərləri hələ sağlığında məktəb dərsliklərinə və müntəxabatlarına daxil olan yazıçılar o qədər də çox deyildir. Bizim respublikamızda isə məktəblilər otuz ildən çoxdur ki, son onilliklərin Azərbaycan ədəbiyyatının ən diqqətəlayiq nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadənin yaradıcılığını öyrənirlər. Onun şeirlərində şərq fəlsəfi lirikasının müdrikliyi, bu lirikanın aforizmi vardır. Lakin Vahabzadənin novatorluğu bundadır ki, klassik ifadə tərzindən imtina etməyərək, bu ifadə tərzinə müasirimizin vətəndaşlıq hissini gətirmişdir. Mənim kiçik qələm qardaşım və dostum Bəxtiyar həmişə həyatın qaynağındadır, zamanın zirvəsindədir, o, həmişə zamanın sürətli axınını kəskin surətdə duyur. Qoy o hələ uzun illər belə olaraq qalsın.

**Süleyman Rüstəm**

Bəxtiyar son dərəcə pak, ürəyi təmiz adamdır, dərin bilikli, heyrətamiz dərəcədə rəngarəng duyğular və fikirlər aləmi olan adamdır, bir sözlə, əsl şairdir. İnsana xidmət şairin fəaliyyətinə istiqamət verən əsas qayədir. Onun təravətli, gözəl şeirləri oxucunu dərhal bu şeirlərdə təsvir edilən aləmlə yaşamağa məcbur edir... Həm şair, həm insan kimi Bəxtiyar müəllimdən mən çox şey öyrənmişəm. Zənnimcə, şairin poeziyası ilə təmasda olan hər kəs bu halı keçirir.

**Rimma Kazakova**

Bəxtiyarı dinləyəndə, dili bilməsən də, onun şeirləri adama şirinsoy gəlir. Hətta sətri tərcüməni oxuyanda dilin gözəlliyi arxasında gizlənmiş dərin qəm və kədəri hiss edirsən. Elə bil ki, Azərbaycan narıdır: şirəsini içirsən, şirindir, qabıqlı yesək, acıdır.

Hər şeydən öncə bir şey aydındır ki, qarşımızdakı şair müstəsna istedada malik qeyri-adi bir şairdir.

**Yevgeni Yevtuşenko**

Bəxtiyar Vahabzadə fitri şairlik istedadı sayəsində hələ gənc yaşlarından oxucuların sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi xoşbəxt sənətkarlardandır...

Bəxtiyar Vahabzadənin qəhrəmanı ilə özü arasında ziddiyyət yoxdur.

**Mehdi Hüseyn**

Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə büyük olan poetik istedadır. Bu yaradıcılıq istedadı ona dərin xalq məhəbbəti qazandırmışdır. Onu Vətənin sevimli şairi etmişdir. Belə bir tale səadətdir. Belə bir insan həqiqətən bəxtiyardır. Bu bəxtiyarlıq bir insan, bir vətəndaş, bir nəğməkarın bəxtiyarlığıdır. Mən Bəxtiyarı belə tanımışam, belə duymuşam, belə sevmişəm.

**Rəsul Rza**

Vahabzadə şeirimizin Füzuli, Vaqif, Sabir, S.Vurğun, Aşıq Ələsgər, Şəhriyar bulağından su içmişdir. O, sözü elə gözəl oynadır, elə parlaq təzadlar yaradır, fikri gözlənilmədən elə döndərir, elə dərinləşdirir və fəlsəfi ümumiləşdirmələr səviyyəsinə elə qaldırır ki, oxuyanda valeh olursan, hədsiz sevinc və mənəvi estetik ləzzət duyursan.

**Mirzə İbrahimov**

Bəxtiyar poeziyası döyüşdür - o, ictimai haqsızlıqla, biganələrlə, şöhrətpərəstlərlə, ikiüzlülərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür. Bəxtiyarın zəkalı, tutarlı, qaynar, xoşsözlü şeiri gözümüzün qarşısında doğma lövhələr yaradır; başı qarlı Kəpəz, Şahdağı, Savalan, Kürün, Arazın uğultulu qırovları, Muğanın, Şirvanın il boyu yaşıl donlu, ucsuz-bucaqsız vadiləri vəsf olunur; onun şeirində coşğun Xəzər, mavi, zümrüd səma, mehriban cənub günəşimiz canlanır.

**Niyazi**

Bəxtiyar xalqının, vətəninin sevgisini, qayğısını qazanmış bir şairdir. Bu isə yaradıcı insan üçün ən böyük bir səadətdir.

**Balaş Azəroğlu**

Bəxtiyar hər nə yazırsa, ürəkdən yazır, təbii yazır, təmənnasız yazır. Biz onun lirikasının avazında saxta notlar hiss etmirik.

**İlyas Əfəndiyev**

Bəxtiyar şeiri onun öz ürəyindən axıb gəlir. Burada təqlid görünmür. Şair ağarmağa başlayan qıvrımlarını qarışdırmır, öz alnını yumruqlayıb durmur. Düzdür, o, "yaradıcılıq əzabları"nı çəkir, ancaq bu əzab fərəhlidir. Görəsən "yaradıcı əzab"dan da dünyada şirin və bəhrəli nə var?!

**Süleyman Rəhimov**

Bəxtiyar Vahabzadə çox xoşbəxt şairdir, çünki həyatı boyu uğrunda mübarizə apardığı arzusuna çatdı - doğma xalqının müstəqilliyini, azadlığını gördü.

**Elçin Əfəndiyev**

Bəxtiyar dərin tellərlə öz xalqına bağlıdır. O, şeirimizin klassik ənənələrindən qidalanaraq özünün müasir ruhlu, müasir amallı şeir dünyasını yaratdı. Onun bir qanadı dünəndirsə, bir qanadı bu gündür, özü isə sabaha uçan bir qartala bənzəyir.

**Nəbi Xəzri**

Bəxtiyar Vahabzadənin yaradıcılığı insanın mənəvi və ictimai bütövlüyünə mane olan hər cür çəpərlərə qarşı üsyan poeziyasıdır.

**Sabir Rustəmxanlı**

B.Vahabzadə yaşlı nəslin hafizəsində özünə möhkəm yer tutan cavidlərin, cavadların, müşfiqlərin, ildırımların dediklərini yeni mərhələdə yeni nəslə deməyə çalışır, tapıntılarını poetik təzadlar üstə quraraq sətiraltı mənalara "enir" və bu yaradıcılıq axtarışları onu başqa müəlliflərdən fərqləndirirdi.

Bəxtiyar Vahabzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Onun şeirləri hər zaman gənclərə örnək olacaq.

**Nəriman Həsənzadə**

Bəxtiyar Vahabzadənin özü, onun poeziyası, siyasi, elmi təfəkkürü, həyat, cəmiyyət hadisələrinə münasibəti, sözün əsl mənasında, möcüzədir.

**Teymur Xəlilov**

Dərin məna, gözəl məntiq, ürək çırpıntılarıyla dolu bədii fəlsəfi fikirlər Bəxtiyar şeirinin özülüdür. Onun hər yeni şeirini səbirsizliklə gözləyənlərdən biriyəm. Açığını deyim, şair Bəxtiyar mənə məharətlə mövzu seçən ustad bir rəssamı xatırladır.

**Mikayıl Abdullayev**

B.Vahabzadə poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb. O, xalq şairidir, laureatdır, ən böyük mükafatlara layiq görülüb. Lakin ən böyük mükafatı xalqın sevgisidir. Bir cavan oğlan mənə Bəxtiyarın şeirini ana dilində oxudu, sonra isə tərcümə elədi və dedi: - Bu, bizim Bəxtiyarın şeiridir. Şərqdə ən hörmətli adamları soyadı ilə deyil, adı ilə çağırırlar. Məsələn, Abay, Sabir, Səməd və s. Bəxtiyarın həm bədii yaradıcılığı, həm də ictimai fəaliyyəti hər cür hörmətə layiqdir.

**Oljas Süleymenov**

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının incilərindən biridir. Onun şeirləri həm milli ruhu, həm də insaniliyi özündə təcəssüm etdirir.

**Kamal Abdullayev**

Bəxtiyar Vahabzadənin yaradıcılığı Azərbaycan ədəbiyyatının qürur mənbəyidir. Onun şeirləri hər zaman milli dəyərlərimizi qoruyub saxlamağa xidmət edib.

**Rüstəm Behrudi**

## Fotoqalereya









Övladları Gülzar və İsfəndiyarla. 1964.



Qızı Gülzarla. 1970.



Prezident Heydər Əliyev "İstiqlal" ordenini şairə təqdim edir.







*Heydər Əliyevlə birgə: Süleyman Rüstəm, Mirzə İbrahimov, Həsən Həsənov və Bəxtiyar Vahabzadə.*



## Videoqalereya

Bahtiyar Vahabzade'nin Annesine Yazdığı Şiir - Türk Dünyasının Enleri - TRT Avaz

Bəxtiyar Vahabzadə - Qəm, şadlıq

Bextiyar Vahabzade ile Temiz Sohbet

Bəxtiyar Vahabzadə Şeir Təklik

Heydər Əliyev və Bəxtiyar Vahabzadə

Mədəniyyətə bağlı ömür: Xalq şairi Bəxtiyar Vahabzadə

Ötən günlər | Bəxtiyar Vahabzadə

Şair Bəxtiyar Vahabzadə

Vahabzadədən türk dünyasına mesajlar

Vahabzadədən türk dünyasına anlamlı mesaj

## Əsərləri

***Kiril əlifbası ilə***



Seçilmiş əsərləri / B.Vahabzadə ; red. İ. Tapdıq. - Bakı : Gənclik, 1967. - 412 s.




Seçilmiş əsərləri : 2 cilddə / B.Vahabzadə ; red. M. Müştaq ; ön söz. Y. Qarayev. C. 1. : Düşündürən poeziya - Bakı : Azərnəşr, 1974. - 383 s.




Seçilmiş əsərləri : 2 cilddə / B.Vahabzadə. C. 2. : Poemalar. - Bakı : Azərnəşr, 1975. - 252 s.



Seçilmiş əsərləri : 2 cilddə / B.Vahabzadə ; red. Q. İsazadə ; rəs. V. Babayeva  C. 1. : Şeirlər və poemalar : (1944-1965). - Bakı : Yazıçı, 1983. - 432 s.




Seçilmiş əsərləri : 2 cilddə / B.Vahabzadə ; red. Q. İsazadə. C. 2. - Bakı: Yazıçı, 1984, 448 s.




Açıq söhbət : poemalar və şeirlər / B.Vahabzadə ; red. M. Ələkbərli. - Bakı : Gənclik, 1977. - 176 s.




Açılan səhərlərə salam : şeirlər və poemalar / B.Vahabzadə ; red. Ağasəfa. - Bakı : Yazıçı, 1979. - 232 s.




Axı dünya fırlanır... : şeirlər, poemalar və tərcümələr / B.Vahabzadə ; red. F. Rəsulova ; rəs. G. Əlizadə. - Bakı : Yazıçı, 1987. - 208 s.




Bir baharın qaranquşu : şeirlər və poemalar / B.Vahabzadə ; red. Ə. Salahzadə ; rəs. N. Babayev. - Bakı : Gənclik, 1971. - 172 s.




Ceyran : şeirlər / B.Vahabzadə ; red. Ə. Abasov ; ön söz H. Orucəli. - Bakı : Uşaqgəncnəşr, 1957. - 164, [1] s.



[Dan yeri : şeirlər, poemalar / B.Vahabzadə ; red.: İ. Tapdıq, F. Sadıq. - Bakı : Gənclik, 1973. - 262 s.]

[Dəniz, sahil : şeirlər / B.Vahabzadə ; red. İ. Tapdıq. - Bakı : Gənclik, 1969. - 144 s.]






[Dörd yüz on altı : poema və şeirlər / B.Vahabzadə ; red. İ. Tapdıq. - Bakı : Gənclik, 1970. - 134 s.]

[Etiraf. Şəbi-hicran / B.Vahabzadə. - Bakı : Uşaqgəncnəşr, 1962. - 187 s.]






Fəryad : dram və poemalar / B.Vahabzadə ; red. A. Bağırov ; rəs. S. Pirayeşi. - Bakı : Azərbaycan, 1995. - 352 s.

Gəlin açıq danışaq... : məqalələr toplusu / B.Vahabzadə. - Bakı : Azərnəşr, 1988. - 212, [4] s.







Hər çiçəkdən bir ləçək / B.Vahabzadə. - Bakı : Yazıçı, 1982. - 231 s.

İnsan və zaman : şeirlər və poemalar / B.Vahabzadə ; red. H. Həsənzadə. - Bakı : Azərnəşr, 1964. - 232 s.






Köklər..., budaqlar : şeirlər / B.Vahabzadə ; red. İ Tapdıq. - Bakı : Gənclik, 1968. - 135 s.




Lirika / B.Vahabzadə. - Bakı : Azərnəşr, 1990. - 211 s.




Payız düşüncələri : şeirlər və poemalar / B.Vahabzadə ; red. S. Rüstəmxanlı. - Bakı : Yazıçı, 1981. - 366 s.




Pyeslər / B.Vahabzadə ; red. S. Məmmədova ; ön söz. C. Məmmədov. - Bakı : Gənclik, 1980. - 356 s.




Sadəlikdə böyüklük : məqalələr / B.Vahabzadə. - Bakı : Yazıçı, 1978. - 338 s.

Səməd Vurğun: monoqrafiya / B.Vahabzadə. - Bakı : Gənclik, 1984. - 380 s. - (Azərbaycanın görkəmli adamları).







Sənətkar və zaman : Ədəbiyyat və sənət, həyat və zaman haqqında düşüncələr / B. Vahabzadə. - Bakı : Gənclik, 1976. - 299 s.

Şeirlər və poema / B.Vahabzadə ; red. M. Müştaq. - Bakı : Azərnəşr, 1961. - 274 s.






Şəhidlər : poema / B.Vahabzadə ; Azərbaycan Mədəniyyət Fondu. - Bakı : Elm, 1990. - 48 s.




Şənbə gecəsinə gedən yol : hekayələr / B.Vahabzadə. - Bakı : Azərnəşr, 1991. - 334 s.




Vətən ocağının istisi / B.Vahabzadə. - Bakı : Gənclik, 1982. - 184 s.




Vətəndaş : şeirlər və poemalar / B.Vahabzadə ; red. Z. Şahsevənli ; rəs. F. Əfəndi. - Bakı : Gənclik, 1994. - 224 s.

*Latın əlifbası ilə*




Seçilmiş əsərləri : 2 cilddə / B.Vahabzadə ; tərt.ed., red. A. Bağırov, ön söz Ç.T.Aytmatov, bur.məsul Ə.Güləliyev. C. 1. : Şeirlər. - Təkrar nəşr, 2002 və 2003-cü il nəşrləri əsasında. - Bakı : Öndər, 2004. - 328 s., 20 sm.

Seçilmiş əsərləri : 2 cilddə / B.Vahabzadə ; tərt.ed., red. A. Bağırov, bur.məsul Ə. Güləliyev. C. 2. : Poemalar. - Təkrar nəşr, 2002 və 2003-cü il nəşrləri əsasında. - Bakı : Öndər, 2004. - 320 s., 20 sm.







Seçilmiş əsərləri : şeirlər / B.Vahabzadə ; red. A. Bağırov ; baş red. Ə. Quliyev. - Bakı : Çaşıoğlu, 2005. - 440 s., 25 sm.

Əsərləri / B.Vahabzadə ; naşir H. Hüseynov. C. 4. : (1970-1979). - Bakı : Çaşıoğlu, 2002. - 608 s., 20 sm.






Seçmə şeirlər / B.Vahabzadə; tərt. ed. və red. Ə.Qiyas (Qi Or El); naşir Ş.Xuduoğlu; qapaq dizaynı: R.Qasım, R.Həsən. - Bakı: Qanun, 2022. – 368 s.

Bir salama dəymədi : Sevgi şeirləri / B.Vahabzadə ; red. Ə. Sayılov. - Bakı : Araz, 2005. - 270 s.,17 sm.







Qəlbi dolu gecələr : poeziya / B.Vahabzadə ; red. Ə. Əlisəfaoğlu. - Bakı : Araz, 2003. - 352 s., 17 sm.

Bir ömür yuxu : poeziya / B. Vahabzadə; red.: A. Bağırov; rəssamı: T. Kərimov - Bakı : Azərnəşr, 1998. - 192 s.






Hara gedir bu dünya? : pyeslər / B.Vahabzadə. - Bakı : Azərbaycan nəşriyyatı, 2001. - 384 s.




Axı, dünya fırlanır.. : şeirləri və poemaları /B.Vahabzadə. - Bakı: Kitab Klubu, 2019.




Örtmə pəncərəni : seçmə şeirlər / B.Vahabzadə ; ön söz C. Feyziyev ; tərt.ed. V. İ. Bəhmənli (Quliyev) ; red. Ə. Əsədzadə. - Bakı : Renessans, 2015. - 252 s.




Şəbi - hicran : seçmə poemalar / B.Vahabzadə ; red., tərt.ed. Ə. Əsədzadə. - Bakı : Renessans, 2016. - 256 s.




Ədəbi düşüncələr : məqalələr toplusu / B.Vahabzadə ; tərt.ed., red. T. Təranə ; naşir B. H. Axundov ; rəs. A. Ələkbərov. - Bakı : Azərbaycan nəşriyyatı, 2000. - 216 s.

Türk dillerinde Bahtiyar Vahabzade`nin 90 şiiri : Şiir / TÜRKSOY - Uluslararası Türk Kültürü Teşkilatı ; düzenl. E.Gafarlı ; tasar. V.Yeşilay ; çev. D.Baytursınulı [et al.]. - Ankara : Türksoy, 2015. - 188 s.




## Əsərləri dövri mətbuatda

17 dekabr : Dostum Şirməmməd Hüseynova // Ədəbiyyat qəzeti. - 2019. - 3 avqust. - № 27. - S. 2.

Axtarırsan // Ədəbiyyat qəzeti. – 2013. – 5 fevral. – S. 4.

Barıt qoxusu var ; Qeyrət ; Surət və b. // Kommunist. – 1984. – sentyabr.

Bayrağım // 525-ci qəzet. - 2019. - 9 noyabr. - № 149. - S. 21.

Bayraq : şeir // Savalan. - 2019. - 17-23 sentyabr. - № 35. - S. 3.

Bəxtiyar Vahabzadənin Mahmud Əli Meriçə məktubu // 525-ci qəzet. - 2023. - 23 avqust. - № 148. - S. 10.

Bəxtiyar hikməti: Söz. Sənət. Poeziya ; Musiqi. Mahnı / təqd. et. S. Laçın // Təzadlar. – 2005. – 16-23 avqust. – S. 15.

Biz bir eşqin butasıyıq // Azərbaycan gəncləri. – 1990. – 3 mart.

Çingiz Aytmatova məktub // Ədəbiyyat qəzeti. – 1999. – 10 sentyabr.

Fəxriyyə ; Ya rəbbim ; Bu aləm məni və b. // Xalq qəzeti. – 1996. – 14 sentyabr.

Gecikmə : şeir // Savalan. - 2008. - 1-3 aprel. - S. 1.

Gecikmə : şeir // Savalan. - 2013. - 20-26 avqust. - № 60/61. - S. 3.

Gecikmə : şeir // Savalan. - 2017. - 31 yanvar. - № 4. - S. 3.

Gəlin, küçə-bazar söhbətlərini ümumiləşdirib böyük bir millətə şamil etməyək // Ədəbiyyat qəzeti. – 1993. – 7 may. - № 18. – S. 3.

Gülüstan: poemadan parça // Ədəbiyyat qəzeti. – 2001. – 18 oktyabr.

Gülüstan: poemadan parça // Ədəbiyyat qəzeti. – 2000. – 11 avqust. - № 32.

Gülüstan-Qarabağ : Xudu Məmmədovun xatirəsinə həsr olunmuş şeir // Təzadlar. - 2006. - 31 oktyabr - 7 noyabr. - S. 3.

Həsrətimizlə yaşıd oğlan : şeir // Savalan. - 2017. - 16-18 may. - № 21. - S. 3.

İnsan-göydə ay kimidir // Ədalət. - 2024. - 16 avqust (№31). - S.14.

Küsübdür ; Haqqı ; Sona çatır əsrimiz və b. // Ədəbiyyat qəzeti. – 1998. – 9 oktyabr. - № 39. – S. 3.

Qərib ; Nağıl-həyat ; Krımda tatar qəbirləri // Ədəbiyyat qəzeti. – 2004. – 19 mart.

Qürbət - Vətən ; Gizlidir ; Məndən xəbərsiz : şeirlər // Azərbaycan. - 2009. - 15 fevral. - S. 8.

Latın dili ; Ana dili // Ədəbiyyat qəzeti. – 2013. – 22 fevral. – № 7. - S. 5.

Mən belə dünyaya nə deyim indi // Ulduz. – 1989. - № 6.

Mənim çırağım ; İş-vaxt ölçüsü ; Gələcək var ; Vay halına // Ədəbiyyat və incəsənət. – 1989. – 7 aprel.

Millətə xidmət ; Ahəng ; Çal, çal ki və b.: şeirlər // Ədəbiyyat qəzeti. – 2001. – 23 fevral. - № 8. – S. 3.

Otaq dustağı // Ədəbiyyat qəzeti. – 1998. – 13 fevral. - № 6. – S. 7.

Salam olsun bahara ; Göz özünü görmür ; Mən dərddən qaçanda və b.: şeirlər // Ədəbiyyat qəzeti. - 2006. - 12 may. - S.2.

Sual varsa, cavab var ; Günlər bir-birinə bənzər ; Ölüm və b. // Xalq qəzeti. – 1997. – 25 may. – S. 8.

Şairin sevgi lirikası : Səməd Vurğunun sevgi lirikası // Ədəbiyyat qəzeti. - 2009. - 27 noyabr. - № 45. - S. 2.

Şəhidlər // Azərbaycan. – 1990. - № 2. – S. 3-25.

Şəhidlər // Xalq qəzeti. - 2024. - 31 mart. - № 66. - S. 9.

Şəhidlər : şeir // Azərbaycan Müəllimi. - 2023. - 20 yanvar. - № 3. - S. 12.

Şəhriyara : şeir // Ədəbiyyat qəzeti. - 2010. - 20 avqust. - № 33. - S. 3.

Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay ; Allah ; Vicdan şahidliyi və b. şeirlər // Yeni Azərbaycan. - 2015. - 14 fevral. - № 29. - S. 7.

Yevtuşenkoya məktub // Günay. – 1995. – 20 may. – S. 3.

Yollar və oğullar // Yeni Azərbaycan. - 2023. - 5 iyul.- S. 8.

## Haqqında kitablarda




Bəxtiyar Vahabzadə : biblioqrafiya / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ; red.: M. Ə. Vəliyeva, G. Səfərəliyeva ; tərt. ed.: S. Əsədova, G. Misirova ; bur. məsul K. M. Tahirov. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2015. - 592 s.

Bəxtiyaram mən / Azəbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ; elmi red. A. Turan ; ön söz, tərt.ed. E. Akimova. - Bakı : Çaşıoğlu, 2016. - 288 s.







**Cəfərov, N**. Bəxtiyar Vahabzadə / N. Cəfərov ; red. M. Xudazarov ; rəs. Z. Əliyev. - Bakı : Azərnəşr, 1996. - 80 s.




**Xəlilov, B.** Bəxtiyar Vahabzadənin dilçilik görüşləri / B. Ə. Xəlilov ; elmi red. İ. Məmmədli ; rəy.: Q. Məşədiyev, N. Seyidəliyev. - Bakı : Bakı Çap Evi, 2014. - 244 s.




**Xəlilov, B.** Bəxtiyar Vahabzadənin pedaqoji görüşləri / B. Ə. Xəlilov ; elmi red. Ə. Ağayev ; rəy.: R. Hüseynzadə, M. İ. Hüseynov. - Bakı : Bakı Çap Evi, 2014. - 108 s.

**Xubanlı, F**. Bəxtiyar Vahabzadə yaradıcılığı və şagirdlərin milli ruhda tərbiyəsi məsələləri : metodik vəsait / F. Xubanlı ; red. N. Əbdülrəhmanlı. - Bakı : Adiloğlu, 2005. - 170 s.







**Qarayev, Y**. Poeziyanın kamilliyi / Y. Qarayev, Ş. Salmanov. - Bakı : Yazıçı, 1985. - 193 s. : şək. - kiril əlifbası ilə

Ulutürk X. R. Ustadı Bəxtiyar Vahabzadə haqqında / X.R.Ulutürk. - Bakı : Azərbaycan, 1999. - 125 s. - kiril əlifbası ilə







**Səfiyeva, F**. Bəxtiyar Vahabzadənin dramaturgiyası / F. R. Səfiyeva ; red. C. Abdullayev. - Bakı : Nurlan, 2006. - 144 s.

## Dövri mətbuatda

Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (21 fevral 2025-ci il) // Respublika. – 2025. – 22 fevral. – № 40. - S. 1.

**Abbas, G**. Azərbaycan poeziyasının Bəxtiyar şairi 98 yaşında / Günel Abbas // Yeni Azərbaycan. - 2023. - 19 avqust. - № 145. - S. 8.

**Abbaslı, T**. "Millətin Bəxtiyarı" : Bu, şairin anım tədbirinin adı idi / Tahir Abbaslı // Mədəniyyət. - 2010. - 17 fevral. - № 12. - S. 12.

**Abbaslı, T**. Millət şairi : 84 illik ömrünün bütün şüurlu dövrünü Cümhuriyyət Qələm-Qəlbilə yaşamış Bəxtiyar Vahabzadə... / Tahir Abbaslı // Mədəniyyət. - 2018. - 14 fevral. - № 12. - S. 11.

**Abbasov, İ**. Azərbaycan fəlsəfi şeirinin görkəmli nümayəndəsi - Bəxtiyar Vahabzadə / İlham Abbasov // Palitra. - 2013. - 6 fevral. - № 22. - S. 13.

**Abbasov, İ**. Azərbaycan fəlsəfi şeirinin görkəmli nümayəndəsi - Bəxtiyar Vahabzadə / İlham Abbasov // Ədəbiyyat qəzeti. - 2013. - 22 fevral. - № 7. - S. 5.

**Abbasov, İ**. Türk dünyasının fəlsəfi şairi : Bəxtiyar Vahabzadə / İlham Abbasov // Kaspi. - 2015. - 16 aprel. - № 66. - S. 15.

**Abbasov, İ**. Xalq şairi Bəxtiyar Vahabzadə / İlham Abbasov // Mədəniyyət. - 2014. - 12 fevral. - № 1. - S. 10.

**Abbasov İ.** Xalq şairi Bəxtiyar Vahabzadə / İlham Abbasov // Kaspi. – 2014. – 5 fevral. – S. 14.

**Abdullayev S.** Sözün gücü və gücsüzlüyü / Sərxan Abdullayev // Yeni Fikir. – 1992. – 23 yanvar. – S. 7.

**Adışirin, T**. Dilimizi və sözümüzü ucaldan şair : Bəxtiyar Vahabzadə / Tural Adışirin // Kaspi. - 2018. - 17 fevral. - № 32. - S. 21.

**Adışirin, T**. Minilliklərin mütəfəkkir şairi / Tural Adışirin // 525-ci qəzet. - 2024. - 20 avqust. - № 148. - S. 14.

**Ağabalayeva S.** Gerçək yalan arasında... Büsbütün şair / Südabə Ağabalayeva // Azərbaycan. – 2005. - №8. – S. 12-22.

**Axundov İ.** Oxucu sözü / İmranAxundov // Mədəniyyət. – 1995. – 14 oktyabr. - № 100.

**Akimova, E**. Bəxtiyaram mən / Elnarə Akimova // Ədəbiyyat qəzeti. - 2019. - 2 fevral. - № 4. - S. 4.

**Akimova, E**. Səninlə dünyada Bəxtiyaram mən / Elnarə Akimova // Ədəbiyyat qəzeti. - 2025. - 31 yanvar. - № 4. - S. 6-7.

Azərbaycanın Bəxtiyarı // Ədəbiyyat qəzeti. – 2000. – 11 avqust. - № 32. – S. 1-2.

**Babayev, Y**. Şair o şairdi... : şeir / Yaqub Babayev // Ədəbiyyat qəzeti. - 2024. - 5 oktyabr. - № 38. - S. 9.

**Bayramova, Y**. Millətin Bəxtiyarı : xalq şairinin anım günüdür! / Yeganə Bayramova // Yeni Azərbaycan. - 2025. - 13 fevral. - № 26. - S. 8.

**Bayramova, Z**. 16 avqust xalq şairi Bəxtiyar Vahabzadənin doğum günüdür / Zümrüd Bayramova // Səs. - 2021. - 14 avqust. - № 144. - S. 8.

**Bayramova, Z.** Bəxtiyar Vahabzadə dünyasının hikməti / Zümrüd Bayramova // Səs. - 2019. - 16 avqust. - № 147. - S. 7.

**Bayramova, Z**. Mücadiləli ömrün fəlsəfi şairi / Zümrüd Bayramova // Səs. - 2024. - 16 avqust. - № 147. - S. 4.

**Bayramova, Z.** Söz dünyasının böyük ustadı / Zümrüd Bayramova // Səs. - 2025. - 22 fevral. - № 33. - S. 4.

**Bayramova, Z**. Vətən uğrunda ölənlər ölümündən doğular / Zümrüd Bayramova // Səs. - 2022. - 16 avqust. - № 145. - S. 10.

**Bayramqızı, Ə**. Bəxtiyar Vahabzadənin poeziyası koreyalı türkoloq alimin tərcüməsində / Əfsanə Bayramqızı // Xalq qəzeti. - 2020. - 1 mart. - № 47. - S. 7.

Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 yanvar 2015-ci il) // Azərbaycan : qəzet. - 2015. - 15 yanvar. - № 10. - S. 1.

Bəxtin yarmı, Bəxtiyar?! [müsahibə] / B.Vahabzadə ; [söhbətləşdi] F.Xəlilzadə // Azərbaycan müəllimi. – 1990. – 12 dekabr. – S. 2.

Bəxtiyar Vahabzadənin poeziyası qırğız dilində : "Biz bir gəmidəyik" şeirlər kitabı qırğız dilinə tərcümə edilib // Mədəniyyət. - 2010. - 27 oktyabr. - № 75. - S. 13.

Bəxtiyar Vahabzadənin şeirləri Koreya dilində // Palitra. - 2020. - 26 fevral. - № 21. - S. 16.

Bəxtiyar Vahabzadə : Bu da bir alın yazısıydı [müsahibə] / B.Vahabzadə ; [söhbətləşdi] Ə. Mustafa // Zaman. – 1995. – 22 noyabr.

Bəxtiyar Vahabzadə: Elə bil milli şüur dərsini beşikdə olanda keçiblər : [müsahibə] / Hidayət ; [söhbətləşdi] S. Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2025. - 4 aprel. - № 11. - S. 18-20.

**Cavadlı, C.** Şəxsiyyəti uca şair / Cavad Cavadlı // Azərbaycan müəllimi. – 2005. – 19 avqust.

**Cəfər, M.** Şairin səsi – xalqın səsi / Məmməd Cəfər // Ədəbiyyat və incəsənət. – 1984. – 16 noyabr.

**Dadaşzadə, A.** Bir gəminin yolçusuyuq / Araz Dadaşzadə // Kommunist. – 1984. – 28 sentyabr.

**Dəmirli, M.** Şair və müasir ədəbi proses / Mail Dəmirli // Azərbaycan. – 2005. - № 8. – S. 26-30.

**Dəmirli, M.** Onu hər dəfə oxuyanda elə bil tilsimə düşürəm: Bəxtiyar Vahabzdə Səməd Vurğunun tədqiqatçısı kimi / Mail Dəmirli // Xalq qəzeti. – 2010. – 4 aprel. – S. 8.

**Dəmirli, M.** Böyük poeziya məktəbi / Mail Dəmirli // Azərbaycan. – 2005. – 17 avqust.

**Dəmirli, M.** Milli iftixarımız – şair Bəxtiyarımız / Mail Dəmirli // Azərbaycan. – 2000. – 5 sentyabr. – S. 4.

**Dəmirli, M.** Şairin tədqiqi: bəzi qeydlər / Mail Dəmirli // Azərbaycan. – 2000. – 9 dekabr. – S. 5.

**Dəmirli, M. B**.Vahabzadənin publisistikasında dilimizə münasibət / Mail Dəmirli // Ədəbiyyat qəzeti. – 2010. - 12 fevral. – S. 3.

**Eminov, A**. Bəxtiyar Vahabzadə fenomenliyi : esse / Allahverdi Eminov // Kaspi. - 2014. - 30 avqust. - № 138. - S. 15.

Əbdülhəlimov, H. Minacat: Xalq şairi Bəxtiyar Vahabzadənin unudulmaz xatirəsinə ithaf olunur / Hikmət Əbdülhəlimov // 525-ci qəzet. - 2022. - 13 avqust. - № 143. - S. 13.

**Əbilov, İ.** Bəxtiyarımız / İmamverdi Əbilov // Ədəbiyyat qəzeti. – 2004. – 29 oktyabr. – S. 3.

**Əkbərov, T.** Mənəvi kamilliyə çağırış / Tofiq Əkbərov // Azərbaycan gəncləri. – 1982. – 14 yanvar. – S. 3.

**Ələkbərli, Ə.** Nəsillərlə yanaşı / Əziz Ələkbərli // Ədəbiyyat qəzeti. – 1992. – 29 may.

**Əliyev, Ş**. Bəxtiyar Vahabzadə - vətənpərvər, milli şair / Şəmsəddin Əliyev // Azərbaycan Müəllimi. - 2022. - 18 mart. - № 11. - S. 5.

**Əliyev, Y.** İstiqlal carçısı / Yaşar Əliyev // Respublika. – 2009. – 16 avqust. – S. 3.

**Əliyeva İ.** B.Vahabzadənin şeirlərində təlim-tərbiyə məsələləri / İfrat Əliyeva // Azərbaycan məktəbi. – 1975. - № 8. – S. 31-34.

**Əliyeva, Z.** Açıq söhbət / Zəhra Əliyeva // Azərbaycan məktəbi. – 1990. - №2. – S. 1-15.

**Əsgərli, Ə**. Bəxtiyar Vahabzadə poeziyasının sirri / Əlizadə Əsgərli // Azərbaycan : qəzet. - 2020. - 23 avqust. - № 167. - S. 4.

**Əsgərli, Ə**. Bəxtiyar Vahabzadə poeziyasının vəzn və janr müəyyənliyi / Əlizadə Əsgərli // Kaspi. - 2016. - 20 avqust. - № 133. - S. 14.

**Əzizxanlı, Q.** Bəxtiyar Vahabzadə: Mən bilirdim ki, məni bir qüvvə müdafiə edir / Qardaşxan Əzizxanlı // Azərbaycan. – 1999. – 23 mart. – S. 4.

**Feyziyev, C.** Adı Bəxtiyar, taleyi Azərbaycan : Bəxtiyar Vahabzadə haqqında / Cavanşir Feyziyev // Xalq qəzeti. - 2013. - 12 yanvar. - № 6. - S. 6.

**Feyziyev, C**. Türk dünyasının böyük söz ustadı : Bəxtiyar Vahabzadə / Cavanşir Feyziyev // Xalq qəzeti. - 2010. - 14 fevral. - № 35. - S. 6.

**Feyziyev, C**. Yerdən Göyə bir baxış / Cavanşir Feyziyev // Ədəbiyyat qəzeti. - 2024. - 17 avqust. - № 31. - S. 12-13.

**Feyziyev, C**. Yerdən göyə bir baxış... : Bəxtiyar Vahabzadənin yaradıcılığı haqqında / Cavanşir Feyziyev // Palitra. - 2015. - 23 oktyabr. - № 194. - S. 12.

**Günəş, R**. Şirməmməd Hüseynovun Bəxtiyar Vahabzadə ilə bağlı xatirələri / Rüfanə Günəş // Azərbaycan Müəllimi. - 2015. - 14 mart. - № 10. - S. 7.

**Hacı, K**. "Təmrin"in Bəxtiyar pəncərəsi / Kənan Hacı // Ədəbiyyat qəzeti. - 2020. - 15 fevral. - № 6. - S. 14-15.

**Hacıyeva, M**. Bəxtiyar o şairdi ki... : [müsahibə] / M.Hacıyeva ; [söhbətləşdi] S.Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2019. - № 5.

**Hacıyeva, M.** Bəxtiyar Vahabzadə poeziyasında qocalma və ölüm fəlsəfəsi / Maarifə Hacıyeva // Ədəbiyyat qəzeti. - 2011. - 20 yanvar. - № 2. - S. 1-2.

**Hacızadə, N**. "Bəxtiyarın üzündən öp..." / Nahid Hacızadə // Təzadlar. - 2006. - 29 avqust, 5-12 sentyabr. - S. 5.

**Hasilova, G**. Bəxtiyar Vahabzadə və mərasim folkloru / Gülsümxanım Hasilova // Kaspi. - 2015. - 3 sentyabr. - № 141. - S. 15.

**Həmidli, T**. Xalq şairi Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması neçə çap olundu və həbsdən necə xilas edildi? / Telman Həmidli // Ədəbiyyat qəzeti. - 2019. - 16 noyabr. - № 39/40. - S. 3.

**Həsənova, N**. Bəxtiyar Vahabzadənin bitməyən müqayisələri / Nahidə Həsənova // Ədəbiyyat qəzeti. - 2020. - 19 iyun. - № 18/19. - S. 12.

**Hüseynov R.** Uzaqdan söhbət / Rəfael Hüseynov // Mədəniyyət. – 1997. – 16 oktyabr.

**İbrahimov, M.** Uca fikirlər, çoşğun ehtiraslar poeziyası / Mirzə İbrahimov // Ədəbiyyat və incəsənət. – 1984. – 16 noyabr. - № 46.

İsfəndiyar Vahabzadə: "Adamlar içində darıxıram mən" : Bəxtiyar Vahabzadənin oğlu ilə söhbət [müsahibə] / İ. Vahabzadə ; [söhbətləşdi] S. Hüseynoğlu // Ədəbiyyat qəzeti. - 2017. - 5 avqust. - № 28. - S. 8-9.

Xalq şairi Bəxtiyar Vahabzadə: yüzilliyin astanasında // 525-ci qəzet. - 2024. - 17 avqust. - № 147. - S. 13.

Xalqımızın böyük və sevimli şairi Bəxtiyar Vahabzadə: İlk dəfə o gün kövrəldim // Zaman. – 1995. – 17 noyabr.

**Xəlilov, F.** İki şair, bir ruh : Bəxtiyar Vahabzadə və Hüseyn Razi / Fərman Xəlilov // 525-ci qəzet. - 2025. - 17 aprel. - № 64. - S. 15.

**Kamal, R.** Yananlar və yamanlar / Rüstəm Kamal // Azərbaycan. – 1994. – 29 aprel.

**Kazakova R**. Sülhün müqəddəratı üçün məsuliyyət / Rimma Kazakova // Kommunist. – 1984. – 11 oktyabr.

**Kinzer, S.** Qorxu və təhlükələrdən poetik ruh yenilməz / Stefan Kinzer // Mədəniyyət. – 1997. – 16 oktyabr. – S. 6.

**Qabiloğlu, M.** Nəslimin yarpaq tökümü başa çatdı / Mahir Qabiloğlu // Xalq qəzeti. – 2009. – 15 fevral. – S. 6.

**Qaçayev, İ**. Bəxtiyar Vahabzadənin iki dəfə irad eşitmişəm : İkinci irada görə, hətta, mükafatlandırılmışam / İ.Qaçayev // Xalq qəzeti. - 2023. - 22 sentyabr. - № 205. - S. 10.

**Qafarlı, R.** Bəxtiyar zirvəsi / Ramazan Qafarlı // Xalq qəzeti. – 2000. – 27 sentyabr. – S. 5.

**Qafarlı, R.** Türk dünyasının Bəxtiyarı: Ustad şairin son günləri və son şeirləri / Ramazan Qafarlı // Xalq qəzeti. – 2009. – 19 fevral.

**Qaragözova, E.** Dilimizin təəssübü şeir və elm tandemində / Elnarə Qaragözova // Xalq qəzeti. - 2025. - 22 fevral. - № 40. - S. 14.

**Qaragözova, E**. Xalq şairi Bəxtiyar Vahabzadə və akademik Ağamusa Axundov : dilimizin təəssübü poeziya və elm tandemində / Elnarə Qaragözova // Ədalət : İctimai-siyasi, hüquq qəzeti. - 2025. - 21 fevral. - № 7. - S. 12.

**Qarayev Y.** Sənətkarın kamilliyi / Y. Qarayev, Ş.Salmanov // Azərbaycan. – 1985. - № 8. – S. 147-150.

**Qasımbəyli, Y**. Rəsul Rza və Bəxtiyar Vahabzadə : Rəsul Rza - 110 / Yaşar Qasımbəyli // Kaspi. - 2020. - 10 iyun. - № 87. - S. 10.

**Qasımov, R**. Milli istiqlalın "Bəxtiyar harayı" / Ramiz Qasımov // Xalq qəzeti. - 2023. - 28 aprel. - № 86. - S. 15.

**Qasımova, F**. Bəxtiyar Vahabzadə yaradıcılığında folklor / Fidan Qasımova // Kaspi. - 2015 . - 29 sentyabr. - № 156. - S. 15.

**Qasımova, F**. Milli iftixarımız - şair Bəxtiyarımız : Bəxtiyar Vahabzadə- 80 / Füzurə Qasımova // Mədəni - Maarif. - 2005. - sentyabr. - № 9. - S. 23-28.

**Qəhrəmanov, Ə**. Bəxtiyar Vahabzadə dramaturgiyası Naxçıvan teatrında / Əli Qəhrəmanov // İki sahil. - 2020. - 22 avqust. - № 144. - S. 26.

**Quliyeva, A**. Bəxtiyar Vahabzadənin ədəbi-elmi dil məsələləri professor Yusif Seyidovun araşdırmalarında / Aliyə Quliyeva // İki sahil. - 2022. - 9 aprel. - № 61. - S. 25.

**Qurbanqızı, Z**. Türk oğlu türkəm : Xalq şairi Bəxtiyar Vahabzadə bu adı şərəflə daşıdı / Zümrüd Qurbanqızı // Respublika. - 2024. - 16 avqust. - № 174. - S. 7.

**Qurbanqızı, Z**. Xalqının Bəxtiyarı / Zümrüd Qurbanqızı // Respublika. - 2022. - 16 avqust. - № 173. - S. 4.

**Mansurzadə, A.** Düşündürən poeziya / Ağəddin Mansurzadə // Azərbaycan müəllimi. – 1982. – 6 avqust.

**Meydanlı, F**. "Həyat, sən nə şirinsən..." : İstiqlal şairimiz Bəxtiyar Vahabzadənin doğum gününə ithaf olunur / Fəxrəddin Meydanlı // Kaspi. - 2013. - 16 avqust. - № 147. - S. 8.

**Mehdixanlı, T.** Poeziyamızın parlaq ulduzu / Telman Mehdixanlı // Azərbaycan. – 2005. – 25 avqust. – S. 7.

**Məhyəddinqızı, X**. İmzaların xalisi : Bəxtiyar Vahabzadə haq-da / Xanım Məhyəddinqızı // Təzadlar. - 2006. - 19-26 sentyabr. - S. 8.

**Məmmədli, A.** Türk dünyasının Bəxtiyarı / A.Məmmədli // Respublika. – 2008. – 16 dekabr. – S. 5.

**Məmmədli, C**. Bəxtiyar Vahabzadə yaradıcılığı "Temrin" dərgisində / Cahangir Məmmədli // 525-ci qəzet. - 2020. - 12 fevral. - № 16. - S. 21.

**Məmmədli, E.** Azərbaycanın Bəxtiyarı / Elçin Məmmədli // Təzadlar. – 2007. – 21-28 avqust. – S. 5.

**Məmmədli, Ş**. Min-min də bitən var... : Bəxtiyar Vahabzadə yaradıcılığında rəqəmlər simvolikası heyrətamiz dərəcədə əks olunur / Şəbnəm Məmmədli // Kaspi. - 2016. - 28 yanvar. - № 16. - S. 13.

**Məmmədov, A.** Maraqlı görüş / Akif Məmmədov // Azərbaycan müəllimi. – 1984. – 21 sentyabr. – S. 4.

**Məmmədov, Ş**. Xalqın sevgisini qazanmış sənətkar : Bəxtiyar Vahabzadə - 85 / Şamxəlil Məmmədov // Azərbaycan müəllimi. - 2010. - 27 avqust. - № 33. - S. 3.

**Mərzili, A**. Bəxtiyar Vahabzadəni anlamaq dərdi / Asif Mərzili // Təzadlar. - 2006. - 22-29 avqust. - S.9.

**Mərzili, A.** Bəxtiyar dünyası / Asif Mərzili // Təzadlar. – 2005. – 16-23 avqust. – S. 3.

**Mikayılov, Ş**. İstedadlı şair, filoloq alim : Bəxtiyar Vahabzadə - 90 / Şəmistan Mikayılov, Asya Bəkirova // Azərbaycan Müəllimi. - 2015. - 6 iyun. - № 20. - S. 12.

Millətin Bəxtiyarı : Xalq şairi Bəxtiyar Vahabzadənin xatirəsinə həsr edilmiş anım gecəsi // Xalq qəzeti. - 2010. - 12 fevral. - № 33. - S. 10.

**Mirəhmədov, Ə.** Qalib şair / Əziz Mirəhmədov // Günay. – 1995. – 14 oktyabr. – S. 4.

**Movçan P.** Könül sərrafı / Pavlo Movçan // Ədəbiyyat və incəsənət. – 1984. – 16 noyabr. - № 46.

**Mollazadə, S.** İncə duyğular, dərin mənalar şairi / S. Mollazadə // Pioner. – 1985. - №1. – S. 8.

**Muradoğlu, N.** “Gülüstan”dan “İstiqlal”a “Şəhidlər”dən keçən yol / Nizami Muradoğlu // Kaspi. – 2015. – 28-30 noyabr. – S. 7.

**Mütəllibov, T**. Bəxtiyarlıq / Tofiq Mütəllibov // Azərbaycan gəncləri. – 1985. – 15 avqust.

**Mütəllibov, T.** Şair qəlbinin hərarəti / Tofiq Mütəllibov // Azərbaycan pioneri. – 1984. – 10 noyabr.

**Müşfiqə**. Arazın o tayında Şəhriyar, bu tayında Bəxtiyar / Müşfiqə // Yeni Azərbaycan. - 2022. - 12 noyabr. - № 207. - S. 8.

**Nəcəfxanlı, Ə**. Bəxtiyar Vahabzadənin məktub yazdığı gənc şair : İndi onun 65 yaşı var / Əli Nəcəfxanlı // 525-ci qəzet. - 2022. - 28 aprel. - № 74. - S. 15.

**Nəcəfxanlı, Ə**. Vətən bizim namusumuz : Bəxtiyar Vahabzadə – 100 / Əli Nəcəfxanlı // Xalq qəzeti. - 2025. - 13 aprel. - № 72. - S. 10.

**Nəzərli, T.** Zamanla birgə / Telman Nəzərli // Azərbaycan. – 2009. – 15 avqust. – S. 5.

**Novruzov,** T. Zaman və mən / Tərlan Novruzov // Xalq qəzeti. – 1999. – 8 iyul. – S. 5.

O da Bəxtiyardı - Mən də Bəxtiyar: [müsahibə] / B.Vahabzadə ; [söhbətləşdi] Q.Əyyub: "Varislər"in bugünkü qonağı Bəxtiyar Vahabzadənin nəvəsi adaşı Bəxtiyar Vahabzadədir // Ədəbiyyat qəzeti. - 2021. - 14 avqust. - № 33. - S. 16-17.

**Osmanova, G.** Bəxtiyar Vahabzadə poeziyası: Cırtdan və div obrazı / Gülnar Osmanova // Kaspi. - 2015. - 9 sentyabr. - № 145. - S. 13.

**Paşayev, Q.** Xalqın ümid və güvənc yeri : Bəxtiyar Vahabzadə haqqında / Qəzənfər Paşayev // Ədəbiyyat qəzeti. - 2010. - 12 fevral. - № 6. - S. 3.

**Pərvin**. Şəki... Və Bəxtiyar Vahabzadə... : esse / Pərvin // 525-ci qəzet. - 2018. - 4 avqust. - № 138. - S. 14-15.

Rafiq Əliyev: Qeyri-səlis məntiq Şərqlə Qərbin sintezində mümkün olardı. L.Zadə məntiqinin də, Bəxtiyar Vahabzadə poetik fəlsəfəsinin də mayası bu sintezdən yaranmışdır. : [müsahibə] / R.Əliyev ; [söhbətləşdi] A.Mərzili // Ədəbiyyat qəzeti. - 2023. - 18 mart. - № 11. - S. 22.

Ruhun şad olsun, böyük ustad! // Azərbaycan. – 2009. – 15 fevral. – S. 8.

**Rüstəmli, T.** Yaddaşları oyadan "Gülüstan" poeması / Tahir Rüstəmli // Xalq qəzeti. - 2023. - 22 yanvar. - № 14. - S. 9.

**Salahov S.** İnsanı ucaldan poeziya / Salman Salahov // Azərbaycan. – 1989. - № 8. – S. 178-180.

**Salmanov, M.** Bəxtiyar dünyası / Mayis Salmanov // Azərbaycan gəncləri. – 1992. – 29 fevral. – S. 4.

SİFAİ. Xalq şairi ilə görüş / SİFAİ // Savalan. – 2002. - 5-18 iyun.

**Süleymanova Q.** Fəlsəfi-intellektual şeirimizin korifeyi / Qızqayıt Süleymanova // Ədəbiyyat qəzeti. – 2015. – 12 dekabr. – S. 19.

**Şahsevənli, Z**. Türk dünyasının unudulmaz şairi : Bəxtiyar Vahabzadə - 90 / Zülfüqar Şahsevənli // Respublika. - 2015. - 16 avqust. - № 176. - S. 3.

Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (27 oktyabr 2015-ci il) // Azərbaycan. – 2015. – 28 oktyabr. - № 235. – S. 1.

**Tapdıq İ.** Zamanla baş-başa / İlyas Tapdıq // Respublika. – 1991. – 8 mart. – S. 6-7.

**Turan.** İstiqlal şairi ölməzdir / Turan // Mədəniyyət. – 2009. – 20 fevral. – S. 5.

**Turan, A.** Bir şeirin tərcümeyi-halı yaxud məktublarda yaşayan tarix / Azər Turan // Ədəbiyyat qəzeti. – 2015. – 15 avqust. – S. 14.

**Turan, A.** Bəxtiyar Vahabzadə haqqında oxunmamış səhifələr : Bəxtiyar Vahabzadə - 95 / Azər Turan // Ədəbiyyat qəzeti. - 2020. - 15 avqust. - № 30/31. - S. 6-8.

Türk dünyasının Bəxtiyarı // Tumurcuq. – 2003. – Fevral № 2(73). – S. 8.

**Ulusel, R**. Bəxtiyar Vahabzadə: ümummilli vəhdət nidası / Rahid Ulusel // Kaspi. - 2015. - 17 aprel. - № 67. - S. 6. ; 22 aprel. - № 70. - S. 15.

**Ulusel, R.** Bədii fikrin vüsətliliyi / Rahid Ulusel // Ədəbiyyat qəzeti. – 2005. – 19 avqust.

**Ulutürk, X. R.** Poeziyada fikirlə hissin vəhdəti / Xəlil Rza Ulutürk // Ədəbiyyat qəzeti. – 2000. – 11 avqust. - № 32.

**Vahabzadə, İ**. 100 ilin 16 ili / İsfəndiyar Vahabzadə // 525-ci qəzet. - 2025. - 13 mart. - № 47. - S. 12-13.

**Vahabzadə, İ.** Armud qoxulu, sarı rəngli yuxular : Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə haqqında / İsfəndiyar Vahabzadə // Ədəbiyyat qəzeti. - 2018. - 10 fevral. - № 5. - S. 3.

**Vəliyeva, T**. Beşik kökümüzdür : Bəxtiyar Vahabzadə yaradıcılığında uşaq folkloruna xüsusi həssaslıqla yanaşılır / Tahirə Vəliyeva // Kaspi. - 2015. - № 168.

Vətəndaşlıq poeziyasının zirvəsi : Bəxtiyar Vahabzadə - 100 // Xalq qəzeti. - 2025. - 22 fevral. - № 40. - S. 14.

**Yaqubqızı, R**. Azadlıq carçısı, millət sevdalısı / Ramidə Yaqubqızı // Respublika. - 2023. - 16 avqust. - № 173. - S. 11.

Bəxtiyar Vahabzadə: Yaşamaq çətindir, amma gəlin müstəqilliyimizi mədəmizin tələbinə qurban verməyək!: [müsahibə] / B.Vahabzadə ; [söhbətləşdi] M.Mirzə // Panorama. – 1997. – 17 dekabr. - № 240.

**Yusifli, C**. Formanın müqəddəs sirri : məmləkətin ilk və son şairi - Bəxtiyar / Cavanşir Yusifli // Ədəbiyyat qəzeti. - 2021. - 19 iyun. - № 26. - S. 12.

**Yusifli, C.** Piano dilləri,yaxud Bəxtiyar Vahabzadə eşqə dair / Cavanşir Yusifli // Ədəbiyyat qəzeti. – 2019. – 28 sentyabr. – N 33. – S. 17.

**Yusifli, V**. İdrak yoluna işıq saçan poeziya : Bəxtiyar Vahabzadə - 90 / Vaqif Yusifli // Azərbaycan : qəzet. - 2015. - 16 avqust. - № 176. - S. 5.

**Zeynallı Z**. Yeni zamanın mübarək: Unudulmaz müəllimim Bəxtiyar Vahabzadənin əziz xatirəsinə həsr edirəm: şeir / Zöhrab Zeynallı // Səs. – 2016. – 20 fevral. – № 33. - S. 12.

Ziyalı sözü: [müsahibə] / B.Vahabzadə ; [söhbətləşdi] S. Kərimova // Azərbaycan müəllimi. – 1994.- 19 mart.

**Zümrüd**. Azərbaycançılıq məfkurəsinə bağlı böyük sənətkar : Xalq şairi Bəxtiyar Vahabzadə haqqında / Zümrüd // Səs. - 2018. - 16 avqust. - № 154. - S. 10.

**Zümrüd**. Söz, sənət dünyamızın Bəxtiyar Vahabzadəsi : Bəxtiyar Vahabzadə - 90 / Zümrüd // Səs. - 2015. - 15 avqust. - № 149. - S. 13.